# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA UŞAQ ƏDƏBİYYATINA DAİR SƏNƏD AXINININ İNKİŞAFI VƏ ONUN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

**Rüqayyə Bəşirzadə**
*Bakı Dövlət Universiteti*
*Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının magistrantı*
*ruqayyebesirzade@gmail.com*

***Xülasə:*** *Məqalədə uşaq ədəbiyyatında mütaliə xüsiyyətləri, onların kitabxana informasiya təminatı, sənəd axını, uşaq oxucularının yaş qrupları kimi məsələlərə geniş yer verilmişdir. Həmçinin uşaq ədəbiyyatına dair sənəd axını, onun inkişaf yolu və müasir dövrdəki vəziyyəti əks olunmuşdur.*
***Açar sözlər:*** *kitabxana, fond, sənəd, sənəd axını, sənəd informasiya fondu, uşaq ədəbiyyatı, müasir dövr, elektron sənəd*

**Giriş.** Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra cəmiyyətin bütün sahələrində olduğu kimi, kitabxana işi sahəsində də əsaslı dəyişikliklər dövrü başlanmışdır. Respublikamızın kitabxana ictimaiyyəti tərəfindən olduqca müsbət qiymətləndirilən bu dəyişikliklər həm kitabxana işi təcrübəsində, həm də onun elmi-nəzəri bazasını təşkil edən kitabxanaşünaslıq elmləri silsiləsində özünü büruzə verir. Cəmiyyətdə mühüm sosial funksiyaları yerinə yetirən kitabxanalar, insan amilinin formalaşmasında, elmi texniki tərəqqininin sürətləndirilməsində, ölkəmizin iqtisadi, sosial və mədəni inkişafında yaxından iştirak edir, milli dövlətçilik ideyalarının geniş xalq kütlələri arasında yayılmasında təşkilatçılıq işi aparır.

Ölkəmizdə fəaliyyət göstərən bütün kitabxanalar "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"na uyğun olaraq elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut kimi mühüm işlər görürlər. Respublikamızda aparılan bu tədbirlərin həyata keçirilməsində Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin kitabxana işinə dair imzaladığı bir sıra sərəncamlar buna əyani sübutdur [3].

Kitabxananın əsasını, onun ən sabit hissəsini sənəd fondu təşkil edir. Kitabxanalar ilk növbədə kolleksiyasının tərkibi və keyfiyyəti ilə müəyyən edilir. Fondun yaşı xüsusilə yüksək qiymətləndirilir. Kitabxana fondunun yaranma sistemini əsasən sənədlər təşkil edir. Buna görə də, sənədlərin mövcudluğu kitabxana fondunun yaradılmasının ilkin və ən xarakterik əlaməti hesab olunur. Lakin real olaraq təcrübədə yeganə bir sənədlə oxucuların müxtəlif informasi-

ya tələbatını, əlbəttə təmin etmək mümkün deyildir. Buna görə də kitabxana fondu yeganə bir sənəddən deyil, çoxlu sənədlərdən ibarətdir. Başqa sözlə, kitabxana fondu həmişə sənəd çoxluğuna əsaslanır.

Fondun yerləşdirilməsində kitabxana binalarının böyüklüyü, quruluşu və ümumi konfiqurasiyası, texniki vasitələri, texnoloji şərait, komplektləşdirmənin həyata keçirilməsi, uçot kitabişləmə, yerləşdirmə, sənədlərin saxlanılması şəraiti, sifarişlər əsasında sənədlərin tələbatçılara çatdırılması vasitələri, həmçinin tələbatçı kontingentlər üçün kitabxana fondunun açıq təqdim olunması vasitələri, sənədlərin mexanikləşdirilmiş qaydada işlənməsi əl əməyinin aradan qaldırılmasını nəzərdə tutur. Əgər kitabxana fondundan tələbatçılar səmərəli istifadə edirlərsə, ümümi sənəd dövriyyəsi normalara uyğundursa, deməli, kitabxanada bütün informasiya prosesləri müasir tələblər səviyyəsində qurulmuşdur və texnoloji proseslər məqsədəuyğun fəaliyyət göstərir, eləcə də texnoloji sistemin köməyi ilə həm oxucular, həm də tələbatçılar qısa müddət vaxt sərf etməklə öz istəklərinə nail olurlar. Texnoloji fəaliyyətin köməyi ilə əmək məhsuldarlığı yüksəlir. Lazım gəldikdə bütün materiallardan sənədlərin surətini əldə etmək imkanı yaranır. Hazırda kitabxana fondlarının əksəriyyətində fondun dolğunluğu və onun çoxsahəli olması mühüm şərtlərdən biri kimi qiymətləndirilir və oxucular qarşısında fondun məzmunun açılması və onun keyfiyyəti, məzmunun müxtəlif aspektlərinin öyrənilməyə və istifadəyə yararlığını göstərir.

İnformasiyanın əldə olunmasında və müvafiq istiqamətə yönəldilməsində uşaq kitabxanalarının rolu kifayət qədər böyükdür. Məhz bu baxımdan əminliklə söyləyə bilərik ki, öz xidmət növlərini, oxucularla iş vərdişlərini, yeni texnologiyaların iş proseslərinə tətbiqini inkişaf etdirən kitabxanalar qloballaşan dünyanın, ümumilikdə informasiya cəmiyyətinin ayrılmaz tərkib hissəsidir.

**Əsas hissə.** Müasir dövrdə kitabxananın qarşısında duran mühüm vəzifələrdən biri də kitabxana fondunun səmərəliliyini artırmaq və təkmilləşdirməkdir. Uşaq ədəbiyyatını fondlarda düzgün əks etdirmək, düzgün təsnifləşdirilməsi, uşaq mütaliəsinə rəhbərlik, oxucu müraciətinin qaydaya salınmasına kömək edir. Odur ki, oxucuların fonddan səmərəli istifadəsi günü-gündən artır. Fondun komplektləşdirilməsi və səmərəliliyi baxımından mütaliə potensialını yüksəltmək mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan kitabxananın fondu oxucu marağını ödəmək imkanına malik olan sənədlər toplusu ilə formalaşır. Bu da şübhəsiz kitabxana fondunun uzun müddət istifadə səmərəliliyini təmin edən amillərdən biri hesab olunur.

Cəmiyyətdə sənəd tələbatı obyektiv olaraq həmişə var və baş verdiyi dövrün konkret sosial şəraiti ilə şərtləşir. Uşaqların tələbatları maraqları vasitəsilə reallaşır. Maraq tələbatın səciyyəvi mövcudluq formasıdır. Maraq da öz növbəsində informasiya istifadəçisində subyektiv şəkildə formalaşan sorğuya çevrilir. Sənəd maraqları və sorğuları sənəd tələbatlarının səciyyəvi mövcudluq formasıdır. Uşaq ədəbiyyatı uşaqların yaş səviyyəsinə münasib bir üslubda yazılır. Pedaqoji təlimə əsasən 17 yaşına qədər olan oxucular dörd qrupa bölünür:

I. Baxçayaşlı uşaqlar (3-7);



II. Kiçik yaşlı məktəblilər (7-11);
III. Orta yaşlı məktəblilər (11-15);
IV. Yuxarı yaşlı məktəblilər və yaxud gənclər (15-17)

Uşaqlar üçün əsər yazan hər bir yazıçı bu bölgünü nəzərə alır. Eyni zamanda bilir ki, uşaq ədəbiyyatı oxucuların yalnız yaşı ilə müəyyənləşmir. Burada uşağın ictimai mühiti, inkişafı, idrakı, zövqü, nitqi, bilik dairəsi də nəzərə alınmalıdır. Uşaq oxucularının tələbatlarını və maraqlarını öyrənərkən bu cəhətlərə diqqət yetirilməlidir. Uşaq yazıçısı bu xüsusiyyətləri nəzərə almadan öz əsərinin ünvanını düzgün müəyyənləşdirə bilməz. Uşaq aləminə dərindən bələd olan yazıçı yeniyetmələrin yaş xüsusiyyətləri ilə bağlı tələbləri nəzərə alır.

Uşaqlarda təfəkkürün və digər şəxsi keyfiyyətlərin formalaşması məhz mütaliə prosesi zamanı baş verir. Yəni uşaq kitabxanalarında mütaliə sistemli və ardıcıl təşkil edilməlidir. Bu onların təfəkkür tərzinin formalaşmasına müsbət təsir göstərir. Uşaq mütaliəsinin təşkili mühüm kitabxana prosesi kimi ənənəvi metodlara daha çox söykənməlidir. Qeyd edək ki, bu fikirlər xarici ölkə kitabxanaları tərəfindən dəstəklənir. Kitab uşaq arzu və xəyallarını gerçəkləşdirən sehrli vasitədir. Hələ ömrünün ilk illərindən kitab körpə ilə işləmənin bir hissəsi olmalıdır. Mütaliə uşaqların mənəvi aləminin formalaşmasına, fəallaşmasına, yüksək mənəvi keyfiyyətlərin tərbiyə edilməsinə mühüm təsir göstərən vasitədir. Daha konkret desək, kitabxanalar uşaq mütaliəsinin təşkilatçısıdır. Müasir kitabxanaşünaslığın yeni təzahür forması kimi kitabxanalara təkcə müxtəlif sənədəlrin əldə olunduğu yer kimi deyil, eyni zamanda uşaqların informasiya ilə təmin olunması prosesinin əsas təşkilatçısı kimi də baxılır. Uşaq təfəkkürü hələ tam formalaşmamış olduğundan onların mütaliəsinə nəzarət, rəhbərlik etmək, və ya istiqamətləndirmək zəruridir. Bu işdə hər şeydən öncə uşaqlarda çoxcəhətli marağın gücünə nail olmaq lazımdır. Həmçinin uşaqlarda yüksək mütaliə mədəniyyətini tərbiyə etmək zəruridir. Uşaqlıq dövründən yeniyetməlik dövrünə və digər yaş dövrünə keçiddə uşaqlar qarşılarına çıxan müxtəlif problemləri həll etmək üçün tələb olunan vərdiş və təcrübəni kitabxananın bilavasitə iştirakı ilə təşkil edilən mütaliənin köməyi ilə qazanırlar [8].

Müasir dünya kitabxanaşünaslığının yeni təzahür forması olaraq uşaqlara daim, fasiləsiz sürətdə informasiya axtarışı strategiyasını öyrətmək lazımdır. Çünki, uşaq kitabxanaları bu gün uşaqları təhsil, yaradıcılıq, təşkilati məsələlərə dair sənəd və biblioqrafik informasiyanın həm ənənəvi, həm də texniki vasitələrlə təmin edən bir mərkəzdir. Uşaq mütaliəsinin təşkili özündə çoxaspektli, mürəkkəb, kompleks problemləri ehtiva edir. Bu problemləri həll etmək üçün onlara məqsədyönlü şəkildə, sistem nöqteyi-nəzərindən yanaşmaq lazımdır.

Azərbaycan uşaq ədəbiyyatının inkişafı da məhz yeni tipli məktəblərin yaranması ilə bilavasitə bağlı idi. Çünki bu tipli məktəblər milli uşaq ədəbiyyatının yaranması zərurətini ortalığa qoyurdu. Rus hakimiyyəti isə Azərbaycan dilində dərsliklərin, ayrı-ayrı qiraət kitablarının yazılması və nəşrində o qədər maraqlı deyildi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, S.Ə.Şirvani nə qədər çalışsa da, ana dilində yazdığı, öz əsərlərindən ibarət tərtib etdiyi "Rəbiülətfal"

və "Tacül-kütub" dərsliklərini çap etdirə bilmədi. Amma mövcud olan məktəblərdə bu kimi dərsliklərə böyük ehtiyac və zəruri tələbat var idi. Çünki bu dövrdə Azərbaycan dilində tərtib edilmiş dərsliklər olduqca az idi. Cəmi iki vəsaitdən – N.Dementyevin "Əlifba" (1839), M.Ş.Vazeh və İ.Qriqoryevin birgə tərtib etdikləri "Kitabi-türki" (1852) adlı dərsliklərdən istifadə olunurdu. Bu illərdə bir sıra dərsliklər çap olunaraq qismən yayılsa da, bəzilərindən yalnız əlyazma şəklində istifadə etmək mümkün olurdu

XIX əsrin sonu və XX əsrin ilk iki onilliyində ümumi milli ədəbiyyatda, o cümlədən, uşaq ədəbiyyatında gedən mütərəqqi proseslər yeni bir inkişaf mərhələsinin başlanğıcı oldu. Bunun bir sıra köklü səbəbləri vardı: birinci səbəbi milli maarifçilik ideyalarının geniş yayılması, mütərəqqi məktəblərin kəmiyyət baxımından artması, milli dərsliklərin yaranması idisə, ikinci səbəbi isə, bu sahənin inkişafı üçün maarifçi ziyalıların öz xalqına xidmət etmək, gələcək nəslin savadlanması qayğısına qalmaq arzuları ilə bağlı idi. Bu illərdə ayrı-ayrı janrda uşaq ədəbiyyatı yaratmaq üçün müxtəlif təkliflər irəli sürülür, bunun nəticəsi isə əməli fəaliyyətdə özünü göstərirdi. Bir sıra uşaq yazıçıları və maarifçi ziyalılar rus ədəbiyyatından bədii nümunələr tərcümə etməklə milli uşaq ədəbiyyatını inkişaf etdirmək və zənginləşdirmək üçün təşəbbüs göstərirdilər. A.Puşkinin "Balıqçı və balıq" nağılı, İ.Krılovun təmsilləri, L.Tolstoyun hekaləri, F.Tütçev və digər sənətkarların bir sıra şeirləri Azərbaycan dilinə tərcümə edilirdi ki, bu da milli uşaq ədəbiyyatının inkişafında müəyyən təsirə malik idi. Milli uşaq ədəbiyyatını yaratmaq uğrunda mübarizə aparanların əksəriyyəti xalq folklorundan istifadə yolu ilə orijinal əsərlər yazmağı təklif edir, əməli fəaliyyət göstərmək təşəbbüsündə olurdular. Bəzi qələm sahibləri isə folklordan istifadənin müxtəlif yollarını tövsiyyə edirdilər. Bu fikirlər bir-birindən fərqli olsa da, milli uşaq ədəbiyyatının müstəqil bir sənət sahəsinə çevrilməsinə yardımçı ola bilirdi. Maarifçi ziyalıların bir qismi folklor nümunələrini toplayıb çap etdirməyi daha əhəmiyyətli iş hesab edirdilər [6].

XX əsrin ikinci onilliyində F.Köçərlinin uşaqlar üçün tərtib etdiyi "Balalara hədiyyə" (1912) müntəxəbatı məhz bu istəyin nəticəsi kimi ərsəyə gəlmişdi. Bu kitabda uşaq folkloru nümunələri: kiçik həcmli nağıllar, yanıltmaclar, düzgülər və sair nümunələr toplanmışdır ki, bu, milli uşaq ədəbiyyatımızın sonrakı inkişafı üçün böyük əhəmiyyət kəsb etmişdi

1931-ci ildə Bakıda çağrılmış Birinci Azərbaycan uşaq ədəbiyyatı konfransında qarşıya qoyulan problemlərin həlli yolları hakimiyyətin müəyyən etdiyi siyasi-ideoloji xətlə və partiyanın mövcud qərarları ilə sıx surətdə bağlı idi. Bu konfransda sovet uşaq ədəbiyyatının inkişafına xidmət edən müxtəlif zəruri məsələlər haqqında fikir söylənilmişdir.

"Azərbaycan uşaq ədəbiyyatının hazırkı vəziyyəti", "Uşaq ədəbiyyatına kadr hazırlığı" və "Uşaq kitablarının təbliğat və təşkilat işləri" mövzusunda məsələlər geniş müzakirəyə səbəb olmuş, bu ədəbiyyatın sosializm cəmiyyətinə layiqli nəsil tərbiyə etməsi probleminə geniş yer verilmişdir. Azərbaycan Proletar Yazıçılar cəmiyyətinin fəaliyyəti tənqid olunmaqla yanaşı, həmçinin, bu cəmiyyətin nəzdində uşaq ədəbiyyatı bölməsinin yaradılması haqqında qərar çıxarılmış və eyni zamanda, bədii tərcümə sahəsinə diqqətin artırılması bir daha tövsiyə edilmişdir. Bu illərdə vahid partiyanın çoxsaylı qərar və qətnamələri sovet uşaq ədəbiyyatının gələcək inkişafına ideya-siyasi istiqamət verməklə yanaşı, həmçinin, bu sahənin nəzəri əsaslarının təkmilləşdirilməsinə, uşaqlar üçün çap olunan kitabların mövcud cəmiyyətə uyğun olmasına yüksək tələbkarlıqla yanaşırdı. Bu illərdə uşaqlara bir sıra maraqlı əsərlər bəxş etmiş C.Cabbarlı, M.Müşfiq, S.Rəhimov, Ə.Vəliyev, M.Cəlal, S.Hüseyn, T.Şahbazi Simürğ, M.Seyidzadə, S.Vurğun, M.Dilbazi və digər sənətkarların yaradıcılığı xüsusilə diqqəti cəlb edirdi. Sonrakı illərdə 23 aprel 1932-ci il tarixli "Ədəbiyyat və incəsənət təşkilatlarının yenidən qurulması haqqında", 9 sentyabr 1933-cü il tarixli "Uşaq ədəbiyyatı yaratmaq haqqında" qəbul edilmiş qərarlar bu illərdə qələmə alınmış ədəbiyyatın ideya istiqamətinin müəyyən olunmasına, o cümlədən, ideoloji mühitin tələblərinə cavab verən uşaq əsərlərinin yaranmasına öz təsirini göstərirdi. Çünki müasir ədəbiyyatın yönümü hələ mövcud siyasi-ideoloji səmtə istiqamətləndilmədiyinə görə 30-cu illərin əvvəllərində uşaq ədəbiyyatının səviyyəsi hakimiyyəti razı salmır, bu sahənin kifayət qədər inkişaf etmədiyi xüsusi vurğulanırdı. Məsələn, bu problem barədə narahatçılığını bildirən yazıçı H.Nəzərli (1895-1939) Azərbaycan sovet yazıçılarının I qurultayında (1934) "Azərbaycan Şura Yazıçıları İttifaqı Təşkilat komitəsinin fəaliyyəti haqqında"kı məruzəsində bir sıra zəruri məsələlərə toxunmaqla bərabər uşaq ədəbiyyatının zəif inkişafını xüsusi qeyd etmişdir.

Uşaq ədəbiyyatına dair mövcud sənəd kütləsi bu sahənin sənəd-informasiya bazasını zənginləşdirməklə yanaşı, müvafiq sahə üzrə müxtəlif istiqamətli, müxtəlif mövzulu biblioqrafik informasiya mənbələrinin yaradılmasına səbəb olmuşdur. Bu biblioqrafik vəsaitlərin yaradılmasına səbəb müasir uşaq nəşriyyatları tərəfindən nəşr edilən kitab və toplular, uşaq yazıçı və şairlərinin əsərləri olmuşdur. Müstəqillik illərində uşaq ədəbiyyatını nəşr edən yeni nəşriyyatların yaradılması bu sahəyə olan diqqət və qayğının nəticəsi idi. Bu nəşriyyatlar içərisində 1996-cı ildə yaradılmış "Tutu" nəşriyyatı Azərbaycanda dünya standartına uyğun uşaq ədəbiyyatı nəşr edən ən yaxşı nəşriyyatlardandır. "Tutu" nəşriyyatı nəşr etdiyi "Sehrli nağıllar" kitabına görə birinci dərəcəli mükafata layiq görülmüşdür. Digər bir nəşriyyat 2004- cü ildən fəaliyyət göstərən "Altun kitab" nəşriyyatıdır. Nəşriyyatın əsas fəaliyyət istiqaməti uşaq kitablarının və orta məktəblər üçün dərsliklərin nəşridir. Müasir uşaq nəşriyyatları içərisində "Bərəkət" nəşriyyatının əsas məqsədi balaca yaşlı uşaqları maraqlandıran mövzular üzrə kitab nəşr etməkdir. "Bərəkət" nəşriyyatında kitablar müxtəlif yaş qrupları əsasında və müxtəlif kateqoriyalar ("Macəra aləmi", "Əxlaqımız", "Maraq dünyası", "Hekayələr", "Tapmaca") üzrə çapdan çıxmışdır. Bu və digər nəşriyyatların nəşr etdikləri uşaq ədəbiyyatı, uşaq kitabxanalarının fondunun zənginləşməsində, sənəd-informasiya bazasının formalaşmasında, müxtəlif istiqamətli biblioqrafik informasiya mənbələrinin yaradılma-

sında, uşaq ədəbiyyatı üzrə çoxsaylı oxucuların biblioqrafik informasiya təminatında mühüm rol oynayır [9].

Uşaq kitabxanalarının fəaliyyəti avtomatlaşdırma və informasiya – kommunikasiya texnologiyalarının kitabxana işinə tətbiqi və idarə edilməsi, ədəbiyyatın elektron versiyasının yaradılması, elektron kataloqun təşkili proseslərinin idarə edilməsi və bu proseslərə nəzarət, veb-saytlarda informasiyaların tənzimlənməsi, turizmlə bağlı məlumatların yerləşdirilməsi kimi vəzifələri özündə birləşdirir. Kitabxana işçilərinin vəzifəsi isə dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplamaq, gələcək nəsillərə çatdırmaqla müstəqil və yaradıcı düşünən vətəndaşların formalaşmasına fəal yardım etməkdən ibarətdir.

Müasir kitabxanaşünaslığın təzahür forması kimi yeni texnologiyaların tətbiqi ilə əlaqədar kitabxanalar oxuculara yeni online xidmət növünü təklif edirlər ki, internet bu xidmət növünün həyata keçirilməsində əvəzsiz vasitədir. İnternet həm də kitabxanaların yeni informasiya resursları ilə zənginləşməsini təmin edir. İnternet və online xidməti kitabxanalara imkan verir ki, onların informasiya ehtiyatlarından və məlumat bazalarından ölkədən kənarda da istifadə olunsun. Deyilənlərdən aydın olur ki, informasiyalaşdırılmış cəmiyyətə keçidlə əlaqədar olaraq kitabxanaların əhaliyə xidmət formaları zamanın tələbinə uyğun olaraq dəyişdirilməlidir. Lakin, yaxşı olardı ki, kitabxanadaxili ənənəvi xidmət üsullarının təkmilləşdirilməsinə daha çox üstünlük verilsin. Xüsusilə bu məsələyə uşaq və məktəb kitabxanalarında böyük diqqət yetirilməlidir. Çünki, uşaq kitabxanalarında texnologiyaların və xidmət işinin tamamilə dəyişdirilməsi yeni müsbət nəticələrin alınmasına deyil, əksinə, bir sıra neqativ halların ortaya çıxmasına səbəb ola bilər. Bu neqativ hallar ilk növbədə öz əksini uşaq mütaliəsinin təşkilində göstərir

**Nəticə.** Azərbaycan uşaq ədəbiyyatı sahəsində son illər meydana gəlmiş bədii əsərləri nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olur ki, uşaqlar üçün yazan qələm sahiblərimiz kiçik yaşlı oxucuların təlim-tərbiyəsinə, əxlaqi-mənəvi dəyərlərin inkişafına və formalaşmasına ciddi təsir göstərən müxtəlif janrlı maraqlı əsərlər yaratmağa çalışmışlar. Xüsusilə, Respublikamızın əldə etdiyi müstəqillikdən sonra milli uşaq ədəbiyyatında yeni forma və məzmuna malik olan əsərlərin yazılmasına meyl artmışdır. Azərbaycan uşaq ədəbiyyatının son onilliklərdəki yaradıcılığına diqqət yetirdikdə aydın olur ki, söz sənətimizin bu sahəsinin məhsuldarlığı əvvəlki illərdən ədəbiyyatın mövzu və ideyalarında, fikri ifadə tərzində müstəqil, gələcəyi inkişafda olacaq milli uşaq ədəbiyyatının ilkin cücərtilərini görmək mümkündür.

**Ədəbiyyat:**


1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə" Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri, metodiki və təcrübi jurnal. 2008. №2
2. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qazeti, 1998, 23 iyun





3. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qazeti, 1999, 14 mart
4. anl.az
5. Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, F.Köçərli adına Resp. Uşaq Kitabxanası. İnformasiya cəmiyyətində uşaq kitabxanaları [Mətn]: [metodik vəsait] // Bakı, 2017, – 53 s.
6. Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı [Mətn]: [monoqrafiya] / F.Əsgərli; elmi red. Z.Xəlil. Bakı: [ADPU], 2009. – 435 s.
7. bsu.edu.az
8. E.Əhmədov, Ə.Hüseynova. Qlobal informasiya məkanı və müasir kitabxanaşünaslıqda mütaliənin yeni təzahürləri [Mətn] // Kitabxanaşünaslıq və biblioqrafiya. 2007. №2. – s. 3-14
9. S.İsmayılova. Uşaq ədəbiyyatına dair biblioqrafik informasiyaya sosial tələbat [Mətn] // Kitabxanaşünaslıq və biblioqrafiya. 2009. №2. – s. 155-159
10. URL: https://old.xalqqazeti.com/az/news/social/20417


**Р.Баширзаде**

**Развитие документооборота по детской литературе в Азербайджане в новое время и его особенности**

***Резюме***: *В статье широко освещаются такие вопросы, как особенности чтения в детской литературе, их библиотечное информационное обеспечение, документооборот, возрастные группы детских читателей. Также отражено документальное движение детской литературы, ее развитие и состояние в современное время.*

***Ключевые слова***: *библиотека, фонд, документ, документооборот, документно-информационный фонд, детская литература, современность, электронный документ*

**R.Bashirzade**

**The development of the flow of documents on children's literature in Azerbaijan in modern times and its specific features**

***Summary***: *In the article, issues such as reading characteristics in children's literature, their library information provision, document flow, and age groups of children's readers are widely covered. Also, the flow of documents on children's literature, its development and its status in modern times are reflected.*

***Key words***: *library: fund, document, document flow, document information fund, children's literature, modern era, electronic document*

***Rəyçi***: *t.ü.f.d., dos.* ***S.Xələfova***